Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Şamaxı filialı

# ELMİ-TƏDQİQAT SİYASƏTİ

Təsdiq edirəm:
ADPU-nun Şamaxı filialının direktoru
________ f.ü.f.d.,dos.Tünzalə Yusifova
"24" "fevral" 2025-ci il

## Ümumi müddəalar

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialında (Filialda) elmi-tədqiqat işləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 6 noyabr tarixli 242 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində elmi-tədqiqat işlərinin təşkili və planlaşdırılması haqqında Əsasnamə", Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", "Elm haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikası Baş nazirinin birinci müavini tərəfindən 08.05.2024-cü il tarixində təsdiq olunmuş "Elmi nəşrlərlə bağlı beynəlxalq reytinq göstəricilərinin yaxşılaşdırılması ilə əlaqədar 2024-cü il üzrə Yol Xəritəsi" əsasında planlaşdırılmış və reallaşdırılmışdır.

Elmi işlərin keyfiyyətinin və müəllim peşəkarlığının yüksəldilməsi, Filialın Strateji İnkişaf Planına uyğun olaraq fəaliyyətlərin icrası, həmçinin filial əməkdaşlarının və tələbələrinin elmi fəaliyyətlərinin səmərəliliyinin artırılması məqsədilə mütəmadi olaraq işlər görülür.

Filialın elmi-tədqiqat siyasəti və prioritet tədqiqat istiqamətləri aşağıdakılardır:

- Elm və təhsilin əlaqələndirilməsi, hər iki istiqamətin balanslı şəkildə inkişaf etdirilməsi;
- Elmi tədqiqatların və tədris prosesinin maddi-texniki və metodiki təminatının gücləndirilməsi;
- Perspektivli gənclərin və məzunların işə cəlb olunması yolu ilə insan potensialının (resurslarının) gəncləşdirilməsi və keyfiyyətinin yüksəldilməsi;
- Keyfiyyətin təminatı və idarə olunması sisteminin təkmilləşdirilməsi, professor-müəllim heyətinin və elmi işçilərin fəaliyyətinin stimullaşdırılması, maddi rifah halının yaxşılaşdırılması;
- Beynəlxalq, regional və ölkədaxili əməkdaşlığın inkişaf etdirilməsi;
- Filialın akademik heyətinin elmi-innovativ fəaliyyətinin artırılması və peşəkarlığın yüksəldilməsi.

## VİZYON

- Beynəlxalq standartlara cavab verən kadr hazırlığında tədqiqatçılıq bacarıqlarının, peşə təhsilinin əsaslarının, ixtisas və innovasiya istiqamətlərinin inkişafını təmin etmək.
- Keyfiyyətli tədqiqatlar aparan, elmi nəticələri texnologiyaya çevirən, bilik və bacarıqlarını ölkənin inkişafı və uğuru naminə istifadə edən, gələcəyə yönəlmiş, respublikada nüfuzlu innovativ "Tədqiqat Mərkəzinə" çevrilmək.
- Fənlərarası və ixtisaslaşmış tədqiqatları, təşəbbüskarlığı, yüksək səviyyəli təhsili və cəmiyyətə xidmətləri ilə ölkə miqyasında hörmətli və qabaqcıl tədqiqat mərkəzi olmaq.

## MİSSİYA

Milli şüura malik, tədqiqatçı, məhsuldar, dərin düşüncəli, elmə və insan hüquqlarına hörmət edən, yaradıcı və innovativ kadrlar yetişdirmək;

Ölkəmizin sosial inkişaf hədəflərinə uyğun olaraq ehtiyac duyulan texnologiya, elm, təhsil, incəsənət və digər sahələrində araşdırmalara üstünlük vermək;

Təhsil, tərbiyə, araşdırma və digər elmi fəaliyyətlər vasitəsilə cəmiyyətin texnoloji, sosial-iqtisadi və mədəni səviyyəsinin yüksəldilməsinə töhfə vermək, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialının respublikada elmi-tədqiqat sahəsində aparıcı tədqiqat mərkəzlərindən birinə çevrilməsi üçün aşağıdakı vəzifələrin icrasını öz üzərinə götürmək:

- Problemləri həll edə bilən, şəxsi və peşəkar inkişafına çalışan, fərqliliklərə hörmət edən, yaradıcı fərdlər yetişdirmək;
- Elmdə və təhsildə innovasiyaların tətbiqini təmin etmək;
- Elmə töhfə verən və etik dəyərlərə hörmət edən fənlərarası tədqiqatların aparılmasına dəstək vermək;
- Sosial məsuliyyət şüuru ilə problemlərə həssas yanaşan, ictimai maraqları nəzərə alan və davamlı inkişaf məqsədlərinə töhfə verən xidmətlər təqdim etmək;
- Marketinq fəaliyyəti göstərərək filiala yüksək bacarıqlara malik tələbələri cəlb etmək və yüksək balla qəbul olunmuş tələbələrin bacarıqlarının tədqiqat–innovasiya istiqamətində inkişafına nail olmaq;
- Professor-müəllim heyətinin innovativ xarakterli elmi-tədqiqat layihələrini dəstəkləmək, aktual və müasir elmi problemlərin həlli istiqamətində fəaliyyət göstərmək;
- Filialda elmi-tədqiqat işlərini təşviq etmək, təhsilalanları elmi yaradıcılığa cəlb etmək.

## MƏQSƏDLƏR

1. Azərbaycanın innovativ araşdırma mərkəzlərindən birinə çevrilmək;
2. İstehsal olunan elmi bilikləri və onları üzə çıxaran tədqiqatları müasir standartlara çatdırmaq, bu istiqamətdə insan resurslarının davamlılığını təmin etmək üçün zəruri ixtisaslı kadr potensialını formalaşdırmaq.

## STRATEGİYALAR

1. Araşdırma və innovasiya xarakterli layihələrin sayının artırmaq;
2. Bütün səviyyələrdə təhsil proqramlarında tədqiqatı həm professor-müəllim heyəti, həm də tələbələr üçün təhsilin əsas komponentinə çevirmək, elmi zənginliyi və motivasiyanı artırmaq;
3. Bir professor-müəllim heyətinə düşən beynəlxalq indeksli jurnallarda dərc olunan elmi nəşrlərin sayının artırmaq.